# İlkin Qarayev (qısa tərcümeyi-hal)



Cənab İlkin Qarayevin 25 ildən çox biznes və məsləhətçi təcrübəsi var. 1992-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Karyerasına bank sektorunda 1991-ci ildə başlamışdır. 1993-cü ildə Türkiyə Banklar Birliyi tərəfindən keçirilən test imtahanından müvəffəqiyyətlə keçmiş və Türkiyədə bank işi üzrə bir illik təhsil almaq imkanı əldə etmişdir. Bu təhsili bitirdikdən sonra 1997-ci ilə qədər müxtəlif banklarda şöbə müdiri, departament rəhbəri və sədrin müşaviri vəzifələrində çalışmışdır.

1997-ci ildən bəri, cənab İlkin Qarayev, fərdi olaraq xüsusi sifarişli tədqiqat layihələrində ixtisaslaşmış Azərbaycanın aparıcı biznes məsləhət şirkətlərindən biri olan AzEkoKonsalting şirkətinin prezidenti və qurucusudur.

İctimai fəaliyyət sahəsində 2002-2006-cı illərdə Milli QHT Forumu sədrinin müavini olmuşdur. 2001-2002-ci illərdə Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramında vətəndaş cəmiyyəti üzrə ekspert və işçi qrupunun üzvü olmuşdur. 2016-cı ildə "Milli iqtisadiyyat və əsas iqtisadi sektorlar üçün strateji yol xəritələri" üzərində işləyən KOB sektoru üzrə işçi qrupunun üzvü olmuşdur. 2006-cı ildən indiyə qədər KOB-ların İnkişafına Yardım Mərkəzi İctimai Birliyinin həmtəsisçisi və Sədridir.

Cənab İlkin Qarayev 2000-ci ildə Azərbaycan Bank Təlim Mərkəzinin fəaliyyətinin ilk günlərindən onunla təlimçi ekspert kimi əməkdaşlıq edir. 2004-2006-cı illərdə ABTM-də Dünya Bankının strukturu olan Beynəlxalq Maliyyə Korporasiyasının və BP Şirkətinin sponsorluğu ilə "KOBİ-lər üçün biznes xidmətlərinin inkişafı" layihəsinin Layihə meneceri vəzifəsində çalışıb. 2000-ci ildən bəri cənab İlkin Qarayev ABTM-də beynəlxalq ticarətin maliyyəsi, akkreditivlər, marketinq və satış və müştəri xidmətləri mövzularında təlimlər keçir və məsləhət xidmətləri göstərir. Fəaliyyəti dövründə İlkin Qarayev bir çox idarəetmə, marketinq və bazar araşdırması layihələrinə rəhbərlik və ya iştirak etmişdir.

Bu müddətdə AYİB və Almaniya İnkişaf Agentliyi (GIZ) tərəfindən maliyyələşdirilən çoxsaylı layihələrin ekspert-təlimçisi olub və adı çəkilən institutlarla əməkdaşlığı davam etdirir. 2005-2006-cı illərdə eBSI tərəfindən Beynəlxalq Ticarət Mütəxəssisi Akkreditasiya (ITS) proqramında təhsil almış və Beynəlxalq Ticarət Mütəxəssisi olaraq Fəxri Sertifikat almışdır. Bundan əlavə İlkin Qarayev Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin layihəsi çərçivəsində (Sapporo, Yaponiya) Biznes İdarəçilik, Avropa Keyfiyyət Təşkilatının (EOQ) EOQ Keyfiyyət Sistemi Meneceri, Avropa Yenidənqurma və İnkişaf Bankının "Beynəlxalq Ticarət və Maliyyə" mövzusunda Peşəkar Təlim Proqramı kimi onlarla təlimlərdə iştirak etmiş və sertifikatlar almışdır.

2010-cu ildən 2018-ci ilin sonuna qədər "Ovarall Management Group" adlı 8 şirkəti əhatə edən şirkətlər qrupunun vitse-prezidenti olmuşdur. 2018-ci ildən etibarən "BİMD" Qapalı Səhmdar Cəmiyyətinin Baş Direktoru vəzifəsində çalışır.